# 8 noyabr 2020-ci il - Qarabağa qovuşduğumuz tarix...

8 noyabr 2020-ci il, Qarabağa qovuşduğumuz tarixi gün. Bu, böyük Qələbə Günüdür! Şanlı tariximizə daxil olan Zəfər günüdür!.. Qarabağ münaqişəsinə xalqımızın zəfəri ilə NİDA qoyduğu gündür.

Azərbaycan, Rusiya prezidentləri və Ermənistan baş naziri tərəfindən noyabrın 10-da imzalanan üçtərəfli bəyanat Azərbaycan tarixinin ən böyük diplomatik qələbəsini təsdiq edən gündür. Üçtərəfli bəyanata əsasən, Dağlıq Qarabağın heç bir xüsusi statusu olmayacaq. Dağlıq Qarabağ Muxtar Vilayəti də tarixə qovuşdu. Noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri birgə bəyanat imzaladılar. Bu bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında darmadağın edilən Ermənistanın Azərbaycan Prezidentinin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etməkdən başqa çıxış yolu qalmadı. Beləliklə Paşinyan kapitulyasiya şərtlərinə razılığını verdi.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Ordumuz kədərli günləri qürurlu günlərlə əvəz etdi. Qoşunlarımızın bütün cəbhə boyu əks-hücum əməliyyatına başlaması barədə verilmiş qərar tarixi qələbəmizi şərtləndirdi.

Müzəffər Azərbaycan Ordusu 44 gün ərzində Şuşa, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan şəhərləri, Xocalı, Laçın və Xocavənd rayonlarının bir hissəsi, yüzlərlə qəsəbə və kəndlərimiz, strateji əhəmiyyətli Hadrut qəsəbəsi, Talış və Suqovuşan kəndlərini işğaldan azad etdi.

Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında cəmi 44 günə mümkünsüzü mümkün etdi! Bəşəriyyətə haqqın, ədalətin böyük dövlətlərin tapdağından qurtara biləcək bir dövlətin - Azərbaycanın var olduğunu sübut etdik. Bu ədaləti 44 gün ərzində yazan Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları, bütün Türkiyə xalqı bir yumruq kimi birləşərək təkcə Ermənistanın yox, bütövlükdə haqsız güclərin üstünə getdi və sübut etdi ki, haqq yolunda, ədalətin, ərazi bütövlüyümüzün bərpası uğrunda vuruşuruq. 44 gündə müzəffər Azərbaycan Ordusu dünyaya sübut etdi ki, döyüş meydanında zəfəri tanklarla, toplarla deyil, ağılla, zəkayla və bir də insan zehninin ən son nailiyyəti olan PUA-larla qazanmaq olar. Şuşanın alınması əməliyyatı isə tamam başqadır. Prezident, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində bildirdi ki, Şuşanın azad edilməsi dünya hərb tarixində xüsusi yer tutacaq: "Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi. Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaq. Çünki bu əməliyyatı bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək yalnız yüngül silahlarla silahlanmış şəkildə azad ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı qələbəmizdir".

Bir sözlə, "Qarabağ Azərbaycandır və nida işarəsi"-söyləyən Prezidentimiz hər zaman olduğu kimi bu dəfə də vədinə əməl etdi. Noyabrın 8-i xalqımızın tarixinə şanlı, qızıl hərflərlə yazıldı!

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

**İlahə RƏHİMOVA,**
**"Qəbələ"**

# Zəfər Günü















Qəbələdə 8 Noyabr - Zəfər Günü münasibətilə ümumrayon tədbiri keçirilmişdir. Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəhbərləri öncə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmiş, sonra şəhid ailələri, qazilər, vətən müharibəsi iştirakçıları ilə birgə torpaqlarımızın azadlığı uğrunda şəhadətə yüksəlmiş şəhidlərin xatirəsinə ucaldılmış Şəhidlər Xiyabanı kompleksində şəhidlərin xatirəsini ehtiramla yad edərək önünə gül dəstələri düzmüşlər. Daha sonra Qəbələ Mədəniyyət Mərkəzində təşkil edilmiş Vətən müharibəsi şəhidlərinin fotoşəkillərindən və məktəblilərin əl işlərindən ibarət sərgiyə baxış keçirilmiş və tədbir Mədəniyyət Mərkəzinin zalında davam etmişdir. Öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmiş, Vətən yolunda, torpaq uğrunda canından keçən şəhidlərimizin xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir. Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan Ordu quruculuğu strategiyasının bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən çox böyük uğurla davam etməsindən, onun bir çağırışıyla dəmir yumruq kimi birləşən ordu-xalq birliyinin əzmlə mübarizə aparmasından və qalib gəlməsindən bəhs etmiş, şəhidlərə Allahdan rəhmət, şəhid ailələrinə səbir diləmiş, qazilərə can sağlığı arzulamışdır. Tədbirdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ Rayon Şöbəsinin rəisi polkovnik Anar Ağabəyov çıxış edərək bayram münasibətilə Azərbaycan xalqını təbrik etmiş, müharibə zamanı Ordumuzun keçdiyi döyüş yolundan bəhs etmişdir. Şəhid atası Əbülfəz Abdurrahmanov və Məmmədağalı kənd tam orta məktəbin müəllimi, Vətən müharibəsi iştirakçısı Elşad Abdurahmanov çıxışlarında müharibədə əsgər və zabitlərimizin göstərdiyi qəhrəmanlıqlardan söz açaraq, onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildirmişlər. "Zəfər Günü" tədbiri məktəblilərin ifasında hazırlanmış şeir-kompozisiya ilə davam etmişdir.

**"Qəbələ"**

# "Hüquqi dövlətin əsasları" adlı olimpiadanın yekun mükafatlandırma mərhələsi

Qəbələdə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin təşkilatçılığı və Qəbələ Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə və 12 noyabr "Konstitusiya Günü"nə həsr olunmuş Qəbələ, Şamaxı, İsmayıllı və Oğuz rayonlarının məktəblilərindən ibarət komandaların yarışdığı "Hüquqi dövlətin əsasları" adlı hüquq olimpiadasının yekun mükafatlandırma mərhələsi keçirilmişdir. Tədbirdə çıxış edən Qəbələ Rayon İcra Hakimiyyətinin Başçısı Səbuhi Abdullayev əvvəlcə qonaqları salamlamış, hüquq olimpiadasının yekun mərhələsinin Qəbələdə keçirilməsindən məmnunluğunu bildirmiş, Azərbaycanda Hüquqi dövlət quruculuğunun ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu qeyd etmiş, ümummilli lider tərəfindən əsası qoyulan dövlətçilik ənənələrinin bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulamışdır. Çıxış edən Qəbələ Rayon Məhkəməsinin sədri Abbas Əliyev Azərbaycan Respublikasının Konstitusiyası haqqında, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Aparatının Konstitusiya hüququ şöbəsinin müdiri, 3-cü dərəcə dövlət müşaviri Dürdanə xanım Məmmədova isə olimpiadanın keçirilməsinin məqsədi və nəticələri barədə geniş məlumat vermişdir. Sonda Hüquq olimpiadasının nəticələrinə görə qalib komandalar, eləcə də yüksək bal toplayan məktəblilər fərdi qaydada Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən Fəxri Fərmanlar və hədiyyələrlə təltif edilmişdir. Rayonlar arasında I yerə Qəbələ şəhər 2 nömrəli tam orta məktəbin komandası layiq görülmüşdür.